Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# Osman Sarıvəllinin poetik axtarışları

**Osman Sarıvəlli XX əsr Azərbaycan poeziyasının yaradıcılarından biridir. Onun üslub fərdiyyəti Səməd Vurğunun yaradıcılıq dəst-xəttinə daha çox yaxındır. Əsasən, heca və sinkretik (ölçülü sərbəstlik) vəznlərdə, xalq-aşıq şeiri janrlarında yazıb-yaradıb. O.Sarıvəlli milli və təbii şairdir. Bu il görkəmli sənətkarın təvəllüd tapmasının 110 ili tamam olur.**

O.Sarıvəlli 1905-ci il dekabrın 17-də Qazax bölgəsinin II Şıxlı kəndində dünyaya gəlib. Qazax Müəllimlər Seminariyasında oxuyub. Daha sonra Moskva Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirib. Bakı Pedaqoji Texnikumunda müəllim, Bakı Teatr Texnikumunda müdir, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda müdir müavini, ”Ədəbiyyat qəzeti”ndə baş redaktor, Uşaqgəncnəşrdə redaktor, Azərbaycan Yazıçılar Birliyində poeziya üzrə məsləhətçi vəzifələrində çalışıb. SSRİ Yazıçılar İttifaqının III qurultayında, Daşkənddə keçirilən Asiya və Afrika yazıçılarının konfranslarında iştirak edib. Türkiyə, İtaliya, Yunanıstan, Seneqal, Mərakeş, Almaniya və Qvineyaya səfərlər edib.

Şair ədəbi fəaliyyətə 1928-ci ildə ”Gənc işçi” qəzetində, ”Ayaqsıza” şeiri ilə başlayıb. ”Dəmir sətirlərim”, ”Bənövşə”, ”Şairin hədiyyəsi”, ”Gənclik eşqi”, ”Bahar çiçəkləri”, ”Yeni dünyanın qapısı”, ”Gətir, oğlum, gətir”, ”Misirli qardaşlar”, ”İqlimdən iqlimə”, ”Sabahı yaradanlar”, ”Mən sabaha gedirəm”,” Kür qırağında” və başqa kitablarını, habelə, dəfələrlə ”Seçilmiş əsərləri”ni nəşr etdirib. Haqqında M.Arif, S.Vurğun, S.Rəhimov, M.Hüseyn, İ.Şıxlı, M.C.Cəfərov, M. İbrahimov, Mir Cəlal, C. Xəndan, K.Talıbzadə, B.Nəbiyev, B.Vahabzadə, A.Əfəndiyev, X.Rza, N. Həsənzadə, Q.Xəlilov, M.Əlioğlu, Ə.Ağayev, H. Orucəli, Ə.Hüseynov, Ş.Salmanov, X.Əlimirzəyev, Z. Hüseynzadə, H. Mirzəzadə və başqaları ədəbi-tənqidi fikir söyləyib, İ.Mustafayev ”Bulaq kimi”, M. Cəfərov ”O. Sarıvəlli və şifahi xalq ədəbiyyatı”, Ə.Əsgərli ”Osman Sarıvəllinin poetikası” monoqrafiyalarını yazıb. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunub. Osman Sarıvəlli 1990-cı il iyulun 3-də vəfat edib.

1930-cu illərdə klassik mədəni irsə ciddi münasibət başlayıb, partiya ədəbiyyat sahəsində qərarlar qəbul edib, milli ədəbiyyatın aparıcı ənənələri mənimsənilib, yeni əsasda davam etdirilib. Sosial həyatın inkişafı, quruculuq illərinin vüsət və əhəmiyyəti diqqəti daha yaxından cəlb edib. Belə bir sosial-tarixi şəraitdə Xalq şairi O.Sarıvəllinin poeziyası, ”Dəmir sətirlərim” adlı ilk şeirlər kitabı meydana gəlib.

1930-cu illər Osman Sarıvəllinin poetik axtarışlarını sürətləndirib, onun fərdi yazı üslubuna aydınlıq gətirib. Şairin bu illərdə yazdığı şeirlərində onun tarixi keçmişi, ağır uşaqlıq çağının izləri daha çox görünüb. O.Sarıvəlli kənd mövzusuna müraciət edib, keçmişin ağrı-acısını unuda bilməyib. ”Mənim ömrüm”, ”Atamın oğlu”, ”Qara yurdun tarixi”, ”Xram uçur”, ”Komsomolçu Sona” əsərləri bu baxımdan səciyyəvi olub.

1930-cu illərin ikinci yarısında faşizmin hakimiyyət başına gəlməsi ilə beynəlxalq aləmdə vəziyyət dəyişib. Buna görə də O.Sarıvəlli diqqəti beynəlxalq mövzulara yönəldib, ”Dünyanın gələcəyi”, ”Fırtına quşu”, ”Odlar və insanlar” kimi şeirlərini yazıb. Şair ”Dünyanın gələcəyi” şeirində ictimai-siyasi məsələlərə inqilabi romantikanın imkanları səviyyəsindən yanaşıb, əsasən, bədii mühakimələr yolu ilə gedib.

”Odlar və insanlar” şeirində ictimai-siyasi mövzu realist-romantik planda həllini tapıb. Cahangirlər dünyasının doğurduğu gərgin sosial-siyasi hadisələr lirik səciyyə daşıyıb. Epik təsvirləri lirik hisslər bürüyüb. Şeirdə Corc Bayronun romantik, üsyankar ruhu, ”Şərq poemaları”nın təsiri, epik-romantik səciyyə aydın görünüb.

O.Sarıvəllinin poetik yeniliyini ”Bənövşə” (1937) şeiri daha çox əks etdirib. Əsərin mövzusu sosial mövqedən bədii həllini tapıb. Şair kənddə yaşadığı illərə, uşaqlıq həyatına qayıdıb, ictimai ideyaları diqqətdə saxlayıb, onları realist boyalarla verməyə çalışıb. Sənətkarın 1930-cu illərdəki şeirlərində təbiət təsvirləri az görünsə də, ”Bənövşə”də sənətkarlığın daha bir bədii xüsusiyyəti üzə çıxıb, şair təbiət hadisəsini məqsəd və düşüncələrinə tabe tutub, insan əhvali-ruhiyyəsi ilə təbiətin halları arasında uyarlıq əsas poetik vasitəyə çevrilib.



Böyük Vətən müharibəsinin ilk illərində səfərbərlik və çağırış ruhu poeziya üçün səciyyəvi olub. O.Sarıvəlli ”Sərhəddə” və ”Yadigar” şeirlərində epik təsvir və təhkiyəni geniş surətdə mətnə gətirib. Azərbaycan əsgərinin mənəvi keyfiyyətləri, onun inam və nikbinlik ruhu ”Sərhəddə” , ”Yadigar” şeirləri üçün əsas düşüncə mənbəyinə çevrilib. Sənətkarın ”Sünbül və at nalı”, ”Vətən eşqinə”, ”İstirahət beşiyi” əsərlərində çağırış motivi tərənnüm, ”Kişisən, dayan”da hiddət və təhdid, ”İstirahət beşiyi”ndə qəhrəmanlıq və qələbəyə inam, ”Vur, başına dönüm, vur” şeirində barışmazlıq, ”Qafqazdan Dona doğru” əsərində isə intiqam və nifrət kimi psixoloji çalarlar kəsb edib.

1941-ci ilin ikinci yarısından başlayaraq Osman Sarıvəllinin yaradıcılığında siyasi motivlər konkretləşib, poeziyasının seçilən bədii keyfiyyətinə çevrilib. Belə konkretliyin ilk nümunələri S.Rüstəmin ”Ana və poçtalyon”, ”Ümidlə yaşa”, Ə.Cəmilin ”Bəxtiyar”, ”Əziz bacı”, ”Açıl, ey səhər”, Z.Xəlilin ”Tatyana”, N.Rəfibəylinin ”Get, sevgilim uğur olsun” şeirlərində özünü göstərib. Ümumilikdən konkretliyə, patetik ruhdan poetik təfərrüata, hadisədən psixoloji təqdimata, bədii təhlilə meyil O.Sarıvəllinin ”Qan qardaşı” şeirində görünüb. ”Qan qardaşı” hərarətli, səmimi şeir olub, təsvirləri canlı və təsirlidir. Əsər epik formada yazılsa da, epik təfərrüatı azdır.

”Bir damcı qan”da (”Şairin hədiyyəsi” şeirində olduğu kimi) qəhrəmanın ümumi təsvirindən, döyüş meydanındakı vəziyyətindən onun qəlb aləminin poetik izahına güclü işıq tutulub. ”Şairin hədiyyəsi” şeirində konkretlik və obrazlılıq ritorikanı, publisistik çağırışı üstələyib. Şair müharibənin doğurduğu bir hadisəni şeir üçün mövzu seçib. Hər kəs cəbhəyə bir şey göndərib, şair də öz kitabını! Hərə öz mövqeyindən danışıb. Şairin psixoloji düşüncələri isə xalqın, ədəbiyyatın, sənət adamlarının mənəvi birliyini ifadə edib.

Cəbhə döyüşçüləri məktublarında O.Sarıvəllinin ”Şairin hədiyyəsi” kitabını, ”Qan qardaşı”, ”Bu yer onun yeridir”, ”Yadigar”, ”Ağ xalatlı qız”, ”Eloğlu”, ”Vətən eşqinə”... şeirlərini bəyəndiklərini bildiriblər. Qarabağ döyüşlərinin davam etdiyi bir şəraitdə həmin şeirlərin bu gün də əhəmiyyəti var.

O.Sarıvəllinin fəlsəfi düşüncələri ”Məhəbbət”, ”Mənə ömür verin”, ”Bu aləmdə nə çatmayır”, ”Deyərlər”, ”Qara torpaq”, ”Uzun ömürlü gün”, ”Berlinin darvazası”, ”Gətir, oğlum, gətir” əsərlərindən başlayıb. Daha qabarıq ifadəsini ”Gətir, oğlum, gətir” poemasında tapıb.

...Akademik M.A.Dadaşzadə ”Şeirimiz Vətən müharibəsi günlərində” və ”Osman Sarıvəlli” məqalələrində ”Gətir, oğlum, gətir” poemasını həyəcanlı, səmimi, orijinal, koloritli, milli mündəricəli əsər kimi qiymətləndirib. Kim bilir, bəlkə də Azərbaycanın cənubunda görkəmli şairimiz M.Şəhriyarın da bu şeirdən xəbəri olub, ”Heydərbabaya salam” poemasını yazmasına müəyyən zəmin yaradıb. Hər halda, hər iki əsərdə ovqat güclü, səsləşən məqamlar çoxdur.

O.Sarıvəllinin müharibə dövrü poeziyasının bir poetik xüsusiyyəti də həyat faktındakı adiliklərin sosial mənalandırma səviyyəsindən təqdimidir. Şairin ”Ağ saçlı adam”, ”Baban belə demişdi”, ”Tut ağacı”, ”Körpə quzu”, ”Birinci dərs”, ”Son qar”, ”Dəvə karvanı”, ”Bu yer onun yeridir”, ”Ağ xalatlı qız”, ”Bir damcı qan” əsərlərində kiçik fakt və hadisə daha dərin sosial məna və məzmun qazanıb. ”Dərdin alım”, ”Qaşına qurban”, ”Yaşamaq istər”, ”Olarmı”, ”Yadında varmı”, ”Qara geyinmə”, ”Var mənim”, Gözlərin oldu”, ”Kəməndə düşdü” şeirləri isə xalq-aşıq şeiri formalarında olub, şairin məhəbbət duyğularının ifadəsidir.

O.Sarıvəllinin ”Cənub şeirləri” 1941-ci ilin oktyabrından başlayıb. ”Təbriz gözəli”, ”Şair və bağban”, ”Son qar”, ”Məhbusların söhbəti”, ”Körpə quzu”, ”Aşığın ayrılıq mahnısı”, ”A dostlar”, ”Birinci dərs” və başqalarını yazıb. Sənətkarın ”Cənub şeirləri”ndə İran şahlıq üsul-idarəsinin reallıqları əsas mövzudur.

O.Sarıvəlli Cənub mövzusunu İkinci Dünya müharibəsindən sonra da davam etdirib. 1953-54-cü illərdə ”Qara kölgələr” əsərini yazıb. Amerika imperializminin Şərq ölkələri, habelə, İranda ağalıq etmək niyyətlərini ifşa edib. Bu gün də siyasi vəziyyət eyni cürdür.

Sənətkar müharibədən sonra sosial quruculuq, kənd və əmək mövzusunu davam etdirib. Bu baxımdan ”Traktorçular nəğməsi”, ”Zəhmət sarayı”, ”Mən səni seçdim ki”, ”Bu səslər içində mənim səsim var”, ”Məhəbbət və iftixar”, ”Etibar”, ”Volqa-Don kanalı açılır bu gün”, ”Yollar və körpülər”, ”Ürəklərdə yanan işıqlar”, ”İqlim dəyişəcəkdir” və başqa şeirləri əlvan formaya, mündəricəyə malikdir.

”Mən səni seçdim ki”, ”Bu səslər içində mənim səsim var”, ”Məhəbbət və iftixar” şeirlərində zəhmətin realist-romantik pafosu xüsusilə seçilir. Şair hər üç şeirdə mühakimələr yolu ilə gedib, qoca, mühəndis, briqadir, aşıq, alim və şair surətləri yaradıb. Ümumilikdən (Bakı fəhləsi, memar, filosof, şair) alınan obrazlar, sonra xüsusiliyə doğru yön alıb; şeirlərə Nəbi, Əhməd, Sona, Əsgər, Gülbala və başqa surətlər daxil olub, estetik ideal daha canlı əks etdirilib. Bu ideallar xalqlara verilən hüquq və azadlıqlar, əmək və zəhmət, sədaqət və etibar, millətlərin dostluq və ilqarı, həqiqət və ədalətdir. Əsərdəki ümumiləşdirmələr dərin və mənalı olub bu gün də çağdaş səslənməkdədir.

İkinci Dünya müharibəsindən sonra milli azadlıq uğrunda mübarizə şairlərə əhəmiyyətli mövzular verib. Bu mövzularda milli istiqlaliyyət, inqilabi-demokratik nailiyyətlərin qorunması və beynəlxalq imperializmin ifşası əsas ideya olub. O.Sarıvəllinin ”Sadəcə suallar” və ”Ana” əsərlərinin mövzusu belə yaranıb.

O.Sarıvəlli 1960-cı ildən sonra əsas mövzularını davam və inkişaf etdirib. Şairin yaradıcılığı dostluq, beynəlxalq, əmək və kənd, fəlsəfi-əxlaqi, xalq həyatının pafosu, fərd-vətəndaş, ədəbi portret, etiraf və bioqrafiya, torpaq və insan, təbiət və insan, onun mənəviyyat və psixologiyası zəngin poetik mündəricə kəsb edib. ”Sibir dəftəri” silsiləsində Baykal-Amur magistralının çəkildiyi, Sibirdə daha böyük tikililərin salındığı bir şəraitdə əsərin müasirliyi daha güclü olub. ”Baykal sahilində” başlığı altında toplanan şeirlərdə Baykal gölü, İrkutsk dənizi mənzərələri, bunlarla bağlı əfsanələr, baykallıların adət-ənənələri mövzunun ideya mərkəzinə çəkilib.

Şairin poeziyasının bir bədii xüsusiyyəti də təbiət hadisələrinə münasibətlə bağlıdır. O.Sarıvəlli sadəcə, təbiət lövhələrini göstərəndə Puşkin və Lermontovla, təbiət hadisələrini fikir və düşüncələrinə tabe tutanda isə Nizami və Höte ənənələri ilə birləşib. Ancaq şair əksər hallarda ictimai mənalandırma yolu ilə gedib ki, bu da yaradıcılığında poetik xüsusiyyət olub.

O.Sarıvəlli xalq-aşıq şeiri formalarında qiymətli poetik nümunələrin də müəllifidir. ”Gəlmişik”, ”Gəlsin”, ”De, gəlsin” və başqa şeirlərində xəlqilik, milli kolorit qüvvətlidir.

1970-ci illərin şeirləri həcm etibarilə kiçik olub, didaktik-əxlaqi məzmun daşıyır. Həmin nümunələrdə sənətkarın həyat təcrübəsi, dünyagörüşü şeirlərin mətn müəyyənliyi üçün əsas olub. Həmin illərin şeirlərində epik forma başlıca müəyyənliyə çevrilib, lakin insanın mənəvi-psixoloji axtarışlarının ifadəsinə yönəlib. 70-ci illərin şeirlərində həyat materialı sıxılıb, mənalandırma isə şairin subyektiv aləmi üçün genişlik qazanıb. Bu illərin şeirlərində fəlsəfi-didaktik mühakiməyə, insan psixologiyası və mənəviyyatının izahına daha çox diqqət yetirilib. Sənətkarın 1980-90-cı illər şeirləri üçün lakoniklik, müdriklik, həyat təcrübəsindən doğan fikir, hökm və qənaətlər səciyyəvidir...

Şair ”Gətir, oğlum, gətir”, ”Ana”, ”Sənsiz keçən günlərim”, ”Misirli qardaşlar”, ”Sadəcə suallar”, ”Dar ağacı” və başqa poemalar, habelə, ”Babək” mənzum dramının müəllifidir.

O.Sarıvəllinin poeziyası həmişə müasirdir. Sənətkarın realizm və xəlqiliyi milli və bəşəri ənənələrə malikdir. M.P.Vaqif və A.Ələsgər poeziyası onun sənətinin mayası və ruhudur. Şairin həssas qəlbi həmişə milli köklərə bağlı olmuş, ilham bulağı bununla çağlamışdır. Onun yaratdığı petik ənənələr və bədii novatorluq keyfiyyətləri çağdaş ədəbiyyatımız üçün öyrənmək mənbəyidir.

Osman Sarıvəllinin poeziyası sovet dövrü ədəbiyyatımızın şeir polifoniyasında özünəməxsus yeri ilə seçilir. Bu poeziya güclü hissiyyat və fikir zənginliyinə, sakit epik təsvir və təhkiyəyə malikdir. Bu poeziya daha çox xalqın bədii təfəkkür düşüncəsi əsasında reallaşan, sabit üslub fərdiyyəti ifadə edən və Xalq şairi Osman Sarıvəllinin yaradıcılıq simasını müəyyənləşdirən poeziyadır.

**Əlizadə Əsgərli,**
**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya üzrə elmlər doktoru, professor**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***